**Azərbaycan Sülh və İnkişaf Alyansının**
**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 64-cü sessiyasına və Təhlükəsizlik Şurasına**

# M Ü R A C İ Ə T İ

Biz, özündə çoxsaylı dövlət qurumlarını, 60-dan çox qeyri-hökumət təşkilatını və müxtəlif etnik qrupları və dini icmaları birləşdirən Azərbaycan Sülh və İnkişaf Alyansı olaraq,

BMT Baş Assambleyasının 64-cü sessiyasının iki mühüm hadisəyə - II Dünya müharibəsinin başlanmasının 70 illiyinə və Beynəlxalq Sülh Gününə təsadüf etdiyini,

Faşizm üzərində qələbəyə Azərbaycanın da mühüm töhfələr verdiyi, müharibə nəticəsində 300 mindən artıq azərbaycanlının həlak olduğu və 130 nəfərin Sovet İttifaqı qəhrəmanı adı aldığı, ümumilikdə 60 milyon insanın tələf olması ilə nəticələnən II Dünya müharibəsinin dəhşətlərinin təkrarlanmaması üçün BMT-nin bütün dünyada sülhün və təhlükəsizliyinin qorunub saxlanması və dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə yaranması və ötən il 60 illiyini qeyd etdiyimiz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin sülhün təmin olunmasında mühüm rolunu,

BMT-nin əsas vəzifələri sırasında universal sülhün möhkəmləndirilməsi üçün zəruri tədbirlər görmək, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, bu məqsədlə sülhə təhlükənin qarşısını almaq üçün, təcavüz aktlarını və digər sülhün pozulması hallarını aradan qaldırmaq üçün səmərəli tədbirlər görmək, sülhün pozulmasına gətirib çıxara bilən münaqişələrin dinc vasitələrlə ədalətli şəkildə və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasının mühüm yer tutduğunu,

Dünya səviyyəsində etnik təmizləmə təcrübəsinin qadağan olunması və onu törədənlərin cəzalandırılması zəruriliyini,

BMT Baş Katibi cənab Ban Ki Munun Beynəlxalq Sülh Günü ilə bağlı dünya dövlətlərinə müraciətini və sülhə çağırışını nəzərə alaraq,

Bu Müraciəti qəbul edirik:

Məlum olduğu kimi, BMT-nin bütün üzvləri öz beynəlxalq münasibətlərində hər-hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Təşkilatın məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyi götürmüşlər.

BMT Baş Assambleyasının hazırda işini davam etdirməkdə olan 64-cü sessiyasının gündəliyinə dünyada sülh və təhlükəsizliyin təmin olunması, terrora qarşı mübarizə, insan hüquqlarının müdafiəsi məsələlərinin daxil edilməsi bu nüfuzlu beynəlxalq qurumun fəaliyyətinin ən mühüm prioritetlərindən olduğunu bir daha sübut edir. Azərbaycan üçün isə “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” və “GUAM ərazisində uzanan konfliktlər və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri” adlı bəndlərin sessiyanın gündəliyində öz əksini tapması xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunmalıdır ki, Ermənistanın Azərbaycana qarşı 20 ildən çox davam edən təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunmuş, on minlərlə insan ermənilər tərəfindən törədilən soyqırım aktlarının, kütləvi qırğınların və etnik təmizlənmənin qurbanı olmuş, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, minlərlə yaşayış məntəqəsi, təhsil, səhiyyə və digər ictimai obyektlər, habelə tarixi-mədəni abidələr məhv edilmişdir. Eyni zamanda minlərlə azərbaycanlı itkin düşmüş, əsir və girov götürülmüş və atəşkəs rejiminə baxmayaraq bu proses bu gün də davam edir.

Beləliklə, Ermənistanın Azərbaycana qarşı apardığı işğal və soyqırım siyasəti nəticəsində insanların əsas hüquq və azadlıqları, xüsusən də yaşamaq hüququ, o cümlədən də fundamental kollektiv hüquqlar olan sülh hüququ və inkişaf hüququ kütləvi və kobud şəkildə pozulmuşdur.

Bu gün uzun sürən sülh danışıqları, nüfuzlu beynəlxalq təşkilatların (ATƏT-in Minsk qrupu və digər qurumlar) problemin həllində vasitəçilik missiyası hələ də məsələnin həllində öz effektiv nəticəsini göstərə bilməmişdir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələri, habelə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin təmin olunması və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı erməni qüvvələrinin Azərbaycan torpaqlarından şərtsiz çıxarılmasını nəzərdə tutan Baş Assambleyanın 14 mart 2008-ci il tarixli qətnaməsi icra olunmur, işğal olunmuş torpaqlar hələ də Ermənistan tərəfindən azad edilmir.

Ermənistan tərəfindən beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə saymazyana münasibət, qeyri-konstruktiv mövqe nümayiş etdirilir, bu gün də Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdülür, atəşkəs rejimi mütəmadi olaraq pozulur, bunun da nəticəsində azərbaycanlı hərbi qulluqçular və sərhədyanı bölgədə yaşayan mülki vətəndaşlar həlak olur, işğal altında olan torpaqlarımızda mövcud zəngin təbii sərvətlər, mədəni irsimiz mənimsənilir, meşə zolaqları yandırılır, nadir tarixi və dini abidələrimiz amansızcasına dağıdılır və vandalizmə məruz qalır.

Qarşıdan gələn, bütün dünyada, o cümlədən ölkəmizdə əlamətdar bayram kimi geniş qeyd olunan 21 sentyabr – Beynəlxalq Sülh günü insanların sülh diləyini, sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsinin, hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir.

Belə bir vaxtda sülhyaratma proseslərinə dəstək verilməli, sülhü qoruyub saxlamaq, xalqların rifahını yüksəltmək istiqamətində bütün səylər birləşdirilməlidir. Davamlı inkişafa gedən birbaşa yol məhz sülh, ədalət, tolerantlıq və qanunun aliliyindən keçir.

BMT Baş Assambleyasının 39/11 saylı 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilən xalqların sülh hüququna dair Bəyannaməsində sülh hüququna xüsusi status verilərək bu hüquq müqəddəs hüquq kimi bəyan edilmişdir. Bu isə sülh hüququnun təmin edilməsinin nə dərəcədə zəruri olduğunu

bir daha isbatlayır. Bəyannamə hər bir dövlətin üzərinə sülhün qorunması öhdəliyini qoyur.

Beynəlxalq Sülh Bürosunun üzvü olan, ölkədaxili və beynəlxalq miqyasda davamlı fəaliyyət göstərən Azərbaycan Sülh və İnkişaf Alyansı olaraq, Ermənistanın ölkəmizə, xalqımıza qarşı uzun müddətdən bəri davam edən təcavüzünü pisləyir, bunu dünyada və Cənubi Qafqaz regionunda sabitliyə, sülhyaratma proseslərinə təsir edən neqativ amil hesab edir, dünya ictimaiyyətini, beynəlxalq qurumları, o cümlədən dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT-ni münaqişənin sülh yolu ilə həllinə dəstək verməyə, Azərbaycanın haqlı mövqeyini müdafiə etməyə, ərazi bütövlüyünün bərpasında kömək göstərməyə çağırırıq.

İnanırıq ki, bu mötəbər qurumun sülhməramlı və əmin-amanlığa istiqamətlənmiş bütün ideyaları dünyada sülh dialoqunun və mədəniyyətinin inkişafında, o cümlədən sülh və təhlükəsizliyə qorxu yaradan amillərin aradan qaldırılmasında yardımçı olacaqdır.

BMT-nin bütün üzvləri beynəlxalq münaqişələri dinc vasitələrlə o qaydada həll etməlidirlər ki, beynəlxalq sülh və təhlükəsizlik və ədalət təhlükəyə məruz qalmasın.

Eyni zamanda Baş Assambleyanın Nizamnaməyə əsasən beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması işində əməkdaşlığın ümumi prinsiplərini nəzərdən keçirmək və bununla bağlı Birləşmiş Millətlərin Üzvlərinə və ya Təhlükəsizlik Şurasına tövsiyələr vermək səlahiyyətinin olduğunu, həmçinin 64-cü sessiyanın gündəliyini nəzərə alaraq sessiya çərçivəsində “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət adlı” Qətnamənin icrası vəziyyətinə dair xüsusi sənədin qəbul edilməsini xahiş edirik.

BMT tərəfindən sülhün bərqərar olması üçün daha qətiyyətli tədbirlərin görülməsini böyük ümidlə gözləyirik.

**Azərbaycan Sülh və İnkişaf Alyansının üzvləri**

**Bakı şəhəri, 18 sentyabr 2009-cu il**